https://doi.org/10.59849/3006-1342.2026.2.69
UOT 94(479.24)

*Ramin Xəlil oğlu Quliyev*
*Azərbaycan Dillər Universiteti,*
*Baş müəllim*
*E-mail: quliyev_ramin@adu.edu.az*
*ORCID ID: 0000-0001-6975-4626*

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİ: TARİXİ-SİYASİ ŞƏRTLƏR VƏ DEMOQRAFİK NƏTİCƏLƏR

*Məqalədə ermənilərin Azərbaycan ərazilərində ilk məskənlərinin salınması, ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün tarixi-siyasi şərtlər və köçürülmənin demoqrafik nəticələri geniş tədqiq olunur. 1441-ci ildə isə erməni katolikosluğu mərkəzinin Kilikiyadan İrəvan yaxınlığında Üçkilsəyə-Üçmüədzinə köçürülməsi ilə ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə məskunlaşması prosesi başlamışdı. Erməni kilsəsinin İrəvan ətrafında müxtəlif üsullarla ələ keçirdiyi torpaqlar onların İrəvan ətrafına köçməsində mayak rolunu oynadı. Azərbaycanın XV-XVIII əsr ərzində Teymurilər, Şeybanilər, Osmanlı imperatorluğu, Gürcü kralları və Rusiya ilə bitmək bilməyən savaşlarının dövləti iqtisadi və siyasi cəhətdən zəiflətməsi erməni kilsəsinin diqqətini cəlb edir. Ermənilər itirilmiş dövlətçiliyini elə bir ərazidə həyata keçirməyi planlayırdı ki, həmin ərazi güclü xristian dövlətin olduğu coğrafiya ilə qonşu olsun. O zaman ermənilərin nisbətən geniş yayıldığı indiki Suriya, Türkiyə və İran ərazilərinə ən yaxın xristian dövlət isə Qafqazda maraqları olan Rusiya idi. Əgər erməni dövləti Qafqazdan kənarda yaradılardısa, onda bu dövlət yalnız müsəlman dövlətlərlə əhatələnmiş olardı. Məhz bu səbəblərdən ermənilərin Cənubi Qafqaza, xüsusilə İrəvan ətraflarına köçürülməsi zəruri idi. Aparılan tədqiqatlardan aydın olur ki, Rusiyanın Şimali Azərbaycanı işğal etdikdən sonra ermənilərin Qafqaz regionuna-İrəvan, Qarabağ və Naxçıvan xanlıqları, Axalsıx və Axalkəlik ərazisinə köçürülməsi ciddi etnik dəyişmələrə-xüsusən də müsəlmanların sayının azalmasına səbəb olmuşdur.*

*Açar sözlər:* Rusiya, köçürülmə, əhali, tarixi-siyasi şərait, məskunlaşma, erməni kilsəsi, Cənubi Qafqaz

## *Giriş*

Ermənilərin Cənubi Qafqaza kütləvi şəkildə köçürülərək Azərbaycan torpaqlarına məskunlaşdırılmasının tədqiqi vətən tarixşünaslığında aktual olaraq qalan problemlərdəndir. Mövzu haqqında bir çox müəlliflər yazmasına baxmayaraq əsas məqsədimiz mövzuya yeni yanaşma ortaya qoymaq, Ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün tarixi-siyasi şərtlərin meydana gəlməsi prosesini ardıcıl şəkildə izləmək və köçürülmənin demoqrafik nəticələrə təsirini öyrənməkdir. Problemin əsas istiqamətlərini və məntiqi ardıcıllığını ümumiləşdirmək əsas hədəfdir. Rusiya tarixşünaslığında (XIX-XX əsrin əvvəlləri) mövzunun ayrı-ayrı süjet və məsələlərinə diqqət yetirilmişdir. S.Qlinka [15], İ.Şopen [34] və N.Şavrovun [33] işləri bu cəhətdən olduqca qiymətlidir. Onların əsərlərində Rusiya imperiyasının ümumqafqaz maraqlarının istiqamətləri göstərilir. Bu əsərlər həm də mühüm mənbə rolunu oynayırlar.

Vətən tarixşünaslığında Rusiyanın Şimali Azərbaycanı işğal etdikdən sonra ermənilərin Qafqaz regionuna-İrəvan, Qarabağ və Naxçıvan xanlıqları, Axalsıx və Axalkəlik ərazisinə köçürülməsi, "Erməni vilayəti"nin yaradılması, bölgədə demoqrafik vəziyyətin dəyişməsi məsələləri müəyyən qədər tədqiq olunmuşdur. Lakin bu hal Sovet dövrü vətən tarixşünaslığında özünü göstərmir. Hətta Cənubi Qafqaza ermənilərin köçürülməsinə toxunan

D.İ.İsmayılzadə bunu onların sürgünü ilə bağlayır və XIX əsrdə Osmanlı imperiyasında ermənilərin tələf edildiyin, lakin sağ qalan ermənilərin nizamla kütləvi şəkildə məcburən Şimali Azərbaycana mühacirət etdiyini yazır[30]. Sovet Ermənistanı tarixçiləri tərəfindən ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesi "Böyük Ermənistan" ideologiyası əsasında işıqlandırılmış, hətta onun ayrı-ayrı aspektlərinə dair monoqrafiyalar yazılmışdır. Onlar əsərlərində Naxçıvan və İrəvan xanlıqlarının (Qərbi Azərbaycan) ərazisini "Şərqi Ermənistan" kimi təqdim edirlər. Sübut etməyə çalışırlar ki, bu ərazilər ermənilərin tarixi torpaqlarıdır, rusların bu əraziləri ələ keçirməsi ilə guya onlar İran əsarətindən və zülmündən xilas olublar.

SSRİ-nin dağılması və Respublikamızın müstəqilliyini bərpa etməsi ilə bağlı olaraq Vətən tarixşünaslığında mövzuya və onun ayrı-ayrı aspektlərinə yanaşma tərzində dəyişiklik olmuşdur. Torpaqlarımızın erməni işğalına məruz qalması isə bu problemə diqqəti artmışdır. Nəticədə mövzunun ayrı-ayrı aspektlərindən bəhs edən çox sayda əsərlər və elmi məqalələr meydana çıxmışdır. Bu baxımdan G.Nəcəfli [21], H.Verdiyeva [25; 27], A.Şahmuradov [24], İ.Kazımbəyli [12], N.Mustafa [18; 19], E.Qarayev [13; 14] və başqalarının işləri diqqətə layiqdir.

**1. Ermənilərin Cənubi Qafqaza (Azərbaycan torpaqlarına) köçürülməsi üçün tarixi-siyasi şərtlər.**

Ermənilərin Qafqaza köçürülməsi prosesi tədqiq edilərkən adətən diqqətdən kənarda qalan məsələlərdən biri bu prosesin həyata keçirilməsi məqsədləri və onun uzunmüddətli fəaliyyətin nəticəsi olmasıdır. Həmçinin köçürmə prosesinə qədər olan dövrdə ermənilərin məqsədli şəkildə Qafqazda məskən salması diqqət yetirilməsi zəruri olan məsələlərdən biridir. Ümumiyyətlə, ermənilərin Qərbi Azərbaycan torpaqlarında məskunlaşması prosesini şərti olaraq xronoloji cəhətdən bir neçə mərhələyə bölə bilərik. Birinci mərhələ onların məqsədyönlü şəkildə İrəvan ətrafında məskunlaşmağa başlaması ilə bağlıdır. Bu mərhələ XV əsrdən XIX əsrin əvvəllərinə qədər davam edir. Bu zaman onlar müxtəlif üsullarla torpaqlar almaqla kiçik qruplar şəklində məskunlaşma niyyətlərini icra edirlər. II mərhələ çar Rusiyasının Qafqazı ələ keçirməsi dövründən 1917-ci ilə qədər davam edir. III mərhələ 1917-1920-ci illəri, IV mərhələ isə Ermənistanda sovet hakimiyyətinin qurulmasından SSRİ-nin süqutuna qədər olan dövrü əhatə edir. Nəhayət, sonuncu V mərhələ 1991-ci ildən bu günə qədər olan dövrü əhatə edir. Bu dövrlərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Məqalədə əsas diqqət birinci və ikinci mərhələnin əvvəllərinə, yəni ermənilərin Qərbi Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi üçün tarixi-siyasi şərtlərin yaranması və bu köçürülmənin demoqrafik nəticələrinə yönəldiləcək.

Ermənilərin Cənubi Qafqaza köçməsi və köçürülməsi əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirilmişdir. Ermənilərin Cənubi Qafqaza və indiki Ermənistan ərazisinə gəlmə element olmaların antropoloji tədqiqatlar da sübut edir. Gürcü alimi İ.A.Cavaxaşvili yazır ki, müasir erməni və gürcü xalqlarının antropoloji quruluşu ən qədim zamanlarda Qafqazda yaşamış yerli əhalinin kəllə sümüyünün quruluşundan kəskin şəkildə fərqlənir. Qafqazın qədim dövrünə aid antropoloji materialların təhlili sübut edir ki, bu diyarın qədim sakinləri türklər olmuşdur. "Erməni tarixçisi İşxanyan özlərinin vətəni hesab etdikləri "Böyük Ermənistan"ı Rusiyanın hüdudlarından (Qafqazdan-R.Q.) kənarda Kiçik Asiyada yerləşdiyini qeyd edir" [7, s. 16].

Qeyd edək ki, 387-ci ildə isə Sasani və Bizans imperiyaları tərəfindən bölüşdürülərək öz dövlətçiliyini itirən ermənilərin ilk dəfə Cənub Qafqaza miqrasiya meylləri yaranmışdı [31, s. 483]. Lakin bu miqrasiya pərakəndə xarakter daşıyaraq kütləvi şəkildə olmayıb və erməni yaşayış məskənlərinin yaranması ilə nəticələnməmişdir. Ərəb xilafətinin dəstəyi ilə 705-ci ildə Erməni qriqoryan kilsəsi Aqvan kiləsini özünə tabe etdi [31, s. 483]. "Kilsə işləri, ibadət və yazı Alban dilində deyil, qrabarda aparılmağa başlandı" [3, s. 142]. Sonralar erməni kilsəsi Alban ruhanilərini tutduqları mövqelərdən sıxışdırıb çıxarmış və ölkədə ərəblərin əlləri

çatmayan dağlıq yerlərdə yaşayan albanları qriqoryanlaşdırmağa başlamışdı. Erməni ruhaniləri ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb Alban mədəniyyətini, heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər [6, s. 106-115]. Beləliklə, Cənubi Qafqazda nə erməni dövləti olub, nə də ermənilər Cənubi Qafqazın yerli əhalisi olub. Bu zaman belə bir sual ortaya çıxır əgər ermənilər Cənubi Qafqazın yerli əhalisi olmayıbsa onların bu əraziyə köçmək istəkləri hansı zərurətdən meydana gəlmişdir. Onların bu əraziyə köçməsini və yaxud köçürülməsini hansı amillər şərtləndirmiş və ya tarixi-siyasi şərtlər mövcud olmuşdur. Qeyd edildiyi kimi bu məsələ erməni dövlətinin bərpa edilməsi istəyi ilə bağlı olmuş və bu işdə qriqoryan kilsəsi mühüm rol oynamışdır. Belə ki, erməni çarlığının ləğvindən sonra hay toplumunun yaşadığı ərazilər VII əsrdən Bizans və ərəb xilafəti kimi qüdrətli dövlətlərin, XI əsrdən Səlcuqilər və Bizansın, tarixin sonrakı dövründə isə Osmanlı dövlətinin nəzarəti altında olmuşdur. Ermənilərin itirilmiş dövlətçiliyini Cənubi Qafqazda bərpa etmək istəyinin səbəbləri ilə bağlı H.Verdiyeva göstərir ki, "Birincisi, Erməni kilsəsi başa düşürdü ki, keçmiş ərazilərdə-kiçik Asiyada erməni dövlətini bərpa etmək ümidi yoxdur. Yəni orada müsəlman dövləti-Osmanlı imperiyası hökmranlıq edir" [27, s. 97]. Bu reallıq qarşısında qalan erməni kilsəsi iki üsuldan istifadə etdi. Burada əsas amil Osmanlı dövlətinin qonşu dövlətlər və Avropa dövlətləri ilə münasibətləri fonunda-ilk olaraq erməni dövlətçiliyinin bərpa edilməsi üçün Avropa dövlətlərinə müxtəlif üsullarla müraciətlər edərək erməni muxtariyyəti və dövlətinin təşkili; ikincisi, XV-XVIII əsrlərdə Azərbaycanın qonşu dövlətlərlə xüsusilə Osmanlı və Rusiya ilə münasibətləri fonunda yaranmış vəziyyətdən istifadə edərək bu ərazilərdə imtiyaz və güzəştlər əldə etmək istiqamətində fəaliyyətləri. 1441-ci ildə isə Qaraqoyunlu Cahanşahın razılığı ilə erməni katolikosluğunun mərkəzi Kilikiyanın Sis şəhərindən İrəvan yaxınlığında Valarşabad kəndindəki Üçkilsəyə-Üçmüədzinə köçürüldü [18, s. 16; 19, s. 6; 29, s. 87]. Qriqoryan missionerləri istisna edilməklə ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə köçüb gəlməsi prosesi bu hadisədən sonra başlamışdı. Bu monastrın yerləşdiyi Valarşabat kəndi katolikos tərəfindən müsəlman sahibkarlardan satın alınmışdır. Sonralar Üçkilsə (Eçmiədzin) monastrı daha 16 kəndi və başqa mülkləri satın almışdı [10, s. 12; 34, s. 451-452]. Ermənilərin İrəvan ətrafında məskunlaşmağa başlaması ilə erməni kilsələri ətrafındakı torpaqların satın alınaraq ilk erməni yaşayış məskənlərinə çevrilməsinə şərait yaratdı. Bununla Cənubi Qafqazda qriqoryanlığı yayan erməni missionerləri üçün əlverişli şərait yarandı. Erməni kilsəsi mərkəzinin Üçmüədzinə köçürülməsində erməni kilsə xadimlərinin strateji planları var idi. Erməni katolikosluğunun Qərbi Azərbaycan ərazisinə köçürülməsindən sonra Qriqoryan kilsəsinin müxtəlif vasitələrlə Azərbaycan türklərinə məxsus torpaqları ələ keçirməsinə və zaman-zaman erməniləri burada yerləşdirməsinə baxmayaraq, ermənilər Çuxursəd (İrəvan) bölgəsində say etibarilə həmişə cüzi azlıq təşkil edirdilər. İngiltərənin məşhur siyasi xadimi və tarixçisi Malkholm XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində bütün keçmiş Səfəvilər ərazisində cəmi 12.383 nəfər erməni əhalisinin yaşadığını göstərmişdi. Məşhur Azərbaycan səyyahı H.Z.Şirvanlı İrəvan bölgəsi ilə bağlı yazırdı ki, "o, Arran mülkündədir. Azərbaycana məxsusdur... Əhalisi türkdilli və şiə məzhəbindədir. Azacıq isəvi də vardır..." [13, s. 394-395].

Simeon Erevansinin "Cambr" əsərində və tarixçi A. Papazyanın Matenadaranda saxlanılan alqı-satqı sənədləri əsasında tərtib etdiyi kitabda Eçmiədzin kilsəsinin Çuxursəəd vilayətində azərbaycanlılara məxsus irsi torpaqların kimdən və hansı qiymətə satın alınması barədə sənədlər verilmişdir[29]. Ermənilər əvvəllər əsasən Osmanlı imperiyası ərazisində yaşasalar da, I Şah Abbasın (1587-1629) hakimiyyəti illərində burada onlara yaradılan əlverişli şərait zəminində (xüsusən tacirlər) Səfəvi imperiyası ərazisinə köçüb burada məskunlaşmağa başladılar. Həmin dövrdən başlayaraq erməni tacirləri xarici ticarətlə məşğul olmaq üçün geniş imtiyazlar aldılar. Maraqlıdır ki, I Şah Abbas hətta ölkənin xarici siyasət

məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətini də özünün müşaviri Xoca Səfər adlı bir erməniyə etibar etmişdi. Bu imkanlardan qondarma erməni dövləti yaratmaq üçün istifadə etməyə çalışan erməni kilsəsi gizli olaraq Avropa ölkələri ilə əlaqələr yaradırdı. 1608-ci ildə Xoca Səfərin başçılığı altında nümayəndə heyəti Roma papasına, İspaniya kralına, Toskana hersoquna və Venesiya dojuna şahın məktubunu aparmışdı. Xoca Səfər bu zaman Avropa ölkələri başçılarına həmçinin ermənilərin də məktubu olduğunu bildirmişdi. Təbii ki, bu məktublarda Avropanın xristian dövlətlərindən Şərqdə-müsəlman ölkələrində yaşayan xristian erməniləri öz himayələrinə götürmələri haqqında xahişlər edilmişdi [8, s. 106].

XVII əsrdə Eçmiədzin katolikosu Azərbaycan feodallarından ətrafdakı torpaqlardan satın almışdı. İrəvan bölgəsindəki Azərbaycan torpaqlarını ermənilərin hansı yollarla ələ keçirmələri ilə bağlı Matenadaranda saxlanılan 1687-ci il tarixli bir sənəd olduqca əhəmiyyətlidir. Həmin sənəddə qeyd olunur ki, biz Azərbaycan türklərinə məxsus olan torpaqlan "... ya satın alır, ya zəbt edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir və yaxud da zorla ələ keçiririk". Simeon İrəvanlının "Cambr" əsərində XVII əsrdə indiki Ermənistanda yaşamış muğanlı, bayat, ayrımlı, ilxıçı, kolanı, qacar, kürəkənli (körakanlı) və s. türk tayfaları haqqında da ətraflı məlumat verilir [4, s. 9-18]. Bu fakt göstərir ki, erməni kilsəsi XVII-XVIII əsrlərdə özünün konkret məqsədlərini-yəni ticarət sazişləri vasitəsilə azərbaycanlıların irsi torpaqlarını ələ keçirmək və özünün, ümumiyyətlə Şimali Azərbaycanda ermənilərin yaşamasını qanuniləşdirmək məqsədini təyin etdi [27, s. 96]. Erməni kilsəsinin Şimali Azərbaycanda aldığı torpaqlar orada heç zaman mövcud olmayan dövlətin-erməni dövlətinin yaradılmasına cəhdi təsdiq edir. Eyni zamanda öz işğalçılıq planlarında ermənilərdən istifadə etmək niyyətində olan böyük xristian dövlətinin-Rusiya imperiyasının himayəçilik vədləri onları ruhlandırırdı. Ermənilər üçün əsas məsələ erməni dövlətinin yaradılması idi. Bu dövlət nə vaxt, harada, hansı yolla yaradılacaqdı-bunlar ermənilər üçün o qədər də əhəmiyyətli deyildi [27, s. 97]. Beləliklə, erməni kilsəsi Osmanlı dövlətinin güclü olduğu şəraitdə yaşadıqları torpaqlara daha yaxın olan Cənubi Qafqazda, konkret olaraq Azərbaycanın qərb ərazilərində aldığı torpaqlar hesabına burada heç zaman mövcud olmayan erməni dövlətini qurmağa cəhd edir. Azərbaycanın XV-XVIII əsrin I yarısı ərzində Teymurilər, Şeybanilər, Osmanlı imperatorluğu, Gürcü kralları və Rusiya ilə bitmək bilməyən savaşları dövləti iqtisadi və siyasi cəhətdən zəiflətdi. Bu savaşlar erməni kilsəsinin diqqətini cəlb edir. "Erməni katalikosu Stepan Salmastetsi erməni "knyaz"larının Eçmiədzin müşavirəsinin (1547-ci ildə) tapşırığı üzrə xüsusi missiya ilə Venetsiya, Roma, Lvova baş çəkdi, lakin heç bir kömək ala bilmədi. Hətta katalikos Mikael Sebastatsinin 50-60-cı illərdə oxşar missiyası nəticəsiz başa çatdı. Lakin buna baxmayaraq erməni kilsəsi xristian Avropasının xüsusilə də Romanın köməyinə inanmaqda davam edirdi [28, s. 37]. Deməli elə tarixi şərait yetişirdi ki, artıq həm ermənilər özlərinin dediyi kimi itirilmiş dövlətçilik ənənəsini bərpa etmək istəyirdilər və bunun üçün xristian dövlətlərinə əl açırdılar, həm də bu xristian dövlətlər elə bir qüvvə axtarırdı ki, Osmanlı dövlətini zəiflətmək üçün ondan istifadə etsin və beləliklə Yaxın Şərq regionunda öz mövqelərini möhkəmləndirsinlər. Rusiya isə nəinki Qara dənizdə, eləcə də Xəzər dənizi sahili boyunca torpaqlar ələ keçirməyə çalışırdı. Beləliklə, Avropa dövlətləri, o cümlədən Rusiya öz istəklərini reallaşdırmaq üçün ermənilərdən, ermənilər isə maraqları üçün onların köməyindən istifadə etməyə çalışırdı. XVII-XIX əsrlərdə Yaxın Şərq, ilk növbədə isə Səfəvi və Osmanlı İmperiyası əraziləri İngiltərə və çar Rusiyası kimi müstəmləkəçi dövlətlərin başlıca hədəf nöqtəsi və mübarizə meydanına çevrilir. Bu yerlərə müdaxilə üçün onlar adıçəkilən dövlətlərin xristian, xüsusilə erməni sakinlərindən istifadə etməyə başladılar. I Pyotr (1682-1725) dövründən başlayaraq ermənilərdən bir alət kimi yararlanmaq niyyəti güdən Rusiya imperiyası erməniləri tarixi Azərbaycan torpaqlarında məskunlaşdırmağa çalışmışdır. Rus qoşunlarını Cənubi Qafqaza

yürüşə cəlb etmək və Azərbaycan torpaqlarına işğalına həvəsləndirmək üçün İsrail Ori I Pyotra təqdim etdiyi 1701-ci il 25 iyul tarixli xüsusi məlumatında ("Памятных записках") 18 bənddən ibarət bir layihə hazırlamışdı. Layihənin 7-ci bəndində Rusiya imperatoruna İrəvan şəhəri haqda kəşfiyyat xarakterli məlumatlar çatdırılır və qeyd olunur: "İrəvan şəhərində cəmi 300 nəfərdən bir az artıq erməni yaşayır və onlar da ticarətlə məşğul olurlar" [21, s. 31]. Hələ, XVIII əsrin II yarısında erməni hakim sinfinin nümayəndələri Rusiya ilə sıx əlaqə saxlayır, Cənubi Qafqazın Rusiya tərəfindən tutulmasını öz siyasi məqsədlərinin təmin olunmasında əsas şərt hesab edirdilər. Həmin dövrdə erməni hərəkatının nümayəndələri İosif Emin, Movses Baqramyan, Şaamiryan və başqaları rus orieantasiyasının inanılmış tərəfdarları idi. Onlar "Böyük Ermənistan"ı "bərpa etməyi" Rusiya ilə əlaqələndirir və bu işdə Rusiyanın köməyinə ümid edirdilər. Ermənilər Kiçik Asiyada itirilmiş dövlətçiliyini Zaqafqaziyada bərpa etmək cəhdinin digər bir səbəbi bu idi ki, onlar bu niyyəti elə bir ərazidə həyata keçirməyi planlayırdı ki, həmin ərazi güclü xristian dövlətin olduğu coğrafiya ilə qonşu olsun. O zaman ermənilərin nisbətən geniş yayıldığı indiki Suriya, Türkiyə və İran ərazilərinə ən yaxın xristian dövlət isə Qafqazda maraqları olan Rusiya idi. Əgər Avropa dövlətlərinin Şərq məsələsinin tərkibi kimi erməni məsələsinin həlli erməni dövlətinin Qafqazdan kənarda yaradılması ilə nəticələnərdisə onda bu dövlət yalnız müsəlman dövlətlərlə əhatələnmiş olardı. Artıq XIX əsrin əvvəllərində Eçmiədzindəki erməni kilsəsi Osmanlı və Qacar ərazisində yaşayan ermənilərin diqqət mərkəzində idi. Erməni kilsəsinin İrəvan ətrafında müxtəlif üsullarla ələ keçirdiyi torpaqlar onların İrəvan ətrafına köçməsində mayak rolunu oynadı. Ermənilər anlayırdılar ki, özlərinin hökumətlərini, idarəçiliyini və sair qurmaq üçün onlara xarici müdaxilənin köməyi və dəstəyi lazımdır. Belə bir kömək isə Rusların Azərbaycan və Osmanlı ərazisinə soxulması ilə oldu. Sisianovun İrəvan xanlığı üzərinə yürüşü ilə Türkiyə ərazisində yaşayan ermənilər Rusiyanın himayəsi altına keçmək istəklərini ifadə etdilər. Belə ki, general Nesvetayev 11 dekabr 1805-ci ildə bildirirdi ki, aldığı xəbərə görə 10 min Bəyazit ermənisi bildirir ki, "nə vaxt İrəvanı Rus ordusu ələ keçirsə, o zaman hökmən bütün ermənilər Rusiyanın himayəsinə daxil olub, İrəvan əyalətində birlikdə yaşamağa razı olar, amma əgər əldə edə bilməsə (İrəvanı), o zaman bütün ermənilər Türkiyə"nin içərilərinə çəkilmiş olacaqlardır" [26, s. 604-631]. Rus-Qacar və Rus-türk müharibələri zamanı ermənilərin Azərbaycan ərazilərinə (xüsusən də İrəvan, Naxçıvan və Qarabağ ərazilərinə) köçmək istəklərinin bağlı olduğu, əsas amillər və tarixi-siyasi şərtlər bunlardır. Birinci, Rusiya dövlətinin Zaqafqaziyada, yəni İran və Osmanlı sərhədləri boyu "Çəpər" erməni dövləti təşkil etmək istəyi və bu istəyin ermənilərin müstəqil dövlət qurmaq məqsədinə uyğun gəlməsi və bununla da bu ərazilərə rusların zəmanəti üzrə ermənilərin köçməsi; İkinci, Ermənilərin müharibələrinin gedişində etdikləri çirkin əməllərinə cavabı olaraq İran hakimiyyəti altında qalıb yaşayardılarsa onları hansı aqibəti gözlədiyin və bundan qorxaraq köç etmələri; Üçüncüsü, Ermənilərin yaşadıqları ərazilərdə azlıq təşkil etməsindən dolayı, gələcək erməni dövlətinin ərazisi kimi təsəvvür etdikləri İrəvan və ona yaxın bölgələrdə etnik çoxluq yaratmaq məqsədilə həmin ərazilərə düşünülmüş şəkildə köç etmələri. İrəvan xanlığının ərazisinə ermənilərin kütləvi surətdə köçürülmələri rus ordusunun bura daxil olmasından sonra başladı. Çar hökuməti erməniləri Şimali Azərbaycan ərazisinə köçürərək imperiyanın müstəmləkə siyasətinin başlıca vəzifələrindən birini yerinə yetirirdi: istila edilmiş düşmən, yaddinli, yaddilli, yadetnik ölkədə dindaşlarla məskunlaşdırılmış ərazi yaratmaq; bu da "rus işinin" xeyrinə "işləməli" idi. Bu nöqteyi-nəzərdən həm müsəlman Osmanlı imperiyası, həm də müsəlman Qacar səltənəti ilə həmsərhəd olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisi xüsusi əhəmiyyətə malik idi [10, s. 109-110]. İrəvanın işğalından sonra Dehqarkan danışıqları zamanı erməni ictimai xadimlərinin xanlıq rejimini yeni quruluşla əvəz etmək və Rusiyanın himayəsi altında Erməni muxtariyyəti təşkil etmək layihəsi meydana çıxdı. X.Lazaryan, A.Xudabaşyan, K.Arqutyan-Dolqoriki 1827-ci ilin sonunda Peterburqda özlərinin layihəsini

tərtib etdilər və onu hökumətə təqdim etdilər. I Nikolay bu tələbi rədd etdi və yerinə Erməni vilayətinin təşkil edilməsi layihəsini təqdir etdi [32, s. 75]. 1828-ci ilin fevralın 9-dan 10-na keçən gecə Türkmənçay kəndində Rusiya ilə İran arasında 16 maddədən ibarət müqavilə imzaladı. On beşinci maddə ermənilərin İrandan Transkafkaza köçürülməsi ilə bağlı idi [2, s. 1. v, 317-325]. Sovet tarixçiləri tərəfindən belə müəyyən olunmuşdur ki, iki ölkə arasında əhalinin hərəkəti ilə bağlı olan 12-15-ci maddələrin müəllifi və ya birgə müəllifi "Erməni xalqının müdafiəçisi olan A.S.Qribaedov" olmuşdur [32, s. 114]. Türkmənçay müqaviləsinin Qriboedov tərəfindən hazırlanmış bəndləri erməni xalqının maraqlarını müdafiə edirdi[28, s. 169]. Ermənilərin köç etdirmələri ilə əlaqədar olaraq Paskeviç tərəfindən 26 fevral 1828-ci ildə rus ordusunun erməni mənşəli zabiti Lazarevə 19 maddədən ibarət təlimat verilmişdi [12, s. 54; 24, s.72]. Təlimat aydın göstərir ki, Rusiyanın erməniləri Qafqaza, xüsusən Şimali Azərbaycanın qərb torpaqlarına köçürmə tədbirləri bir təsadüfün nəticəsi olmayıb, mükəmməl hazırlanmış dövlət siyasəti idi.

**2. Ermənilərin Cənubi Qafqaza köçürülməsinin demoqrafik nəticələri.**

Ermənilərin İrandan Qafqaza köçürülərək yerləşdirilmələri Rusiyaya coğrafiyada əsaslı demoqrafik dəyişikliklər həyata keçirməyə imkan vermişdi [23, s. 322]. İran tərəfi də ilk vaxtlarda bu hadisələrə o qədər də əhəmiyyət verməmiş kimi görünürdü. Onlar köç fikrinin bu qədər əhatəli olacağını ilk zamanlar təsəvvür edə bilmirdilər. Rusiya tərəfi erməniləri köçməyə məcbur edən hərəkətlərdən çəkinmir, köçməyən kəndlərdən yasavullar və kazaklar vasitəsilə pul tələb edirdi [15, s. 33-34]. 1828-ci ilin fevral ayından başlayaraq təxminən iki il ərzində İrandan 40 min erməni köçürüldü. Köçürülənlər başlıca olaraq İrəvan, Naxçıvan, Axaltsı, Axalkələki və Qarabağda yerləşdirilirdi. İrəvan müvəqqəti idarəsi yanında köçənləri qəbul etmək üzrə komitə yaradılmışdı. Bu komitə köçənləri yerləşdirməyə və onlara maliyyə və başqa yardımları etməyə çalışırdı [28, s. 171-172]. 21 mart 1828-ci ildə I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqları ləğv edildi, bu xanlıqların və Ordubad dairəsinin hesabına "Erməni vilayəti" yaradıldı. Müvəqqəti İrəvan İdarəsi öz yerini yeni şəraitə uyğun təşkil edilmiş müvafiq orqana güzəştə getməyə məcbur oldu. İrandan ermənilərin köçürülməsi davam etdiyi şəraitdə Rusiya Osmanlı dövləti ilə yeni müharibəyə başladı. Rus qoşunları 23 iyunda Qars, iyulda Axalkələyi, 15 avqustda Axaltsi, 28 avqustda Bəyaziti tutdular [16, s. 36]. 12 sentyabrda Alaşkert işğal edildi. 1829-cu ilin iyununda Qafqaz korpusu Ərzurumu ələ keçirdi, iyulda isə Bayburt və Xunus tutuldu. Bütün bu ərazilərin ruslar tərəfindən ələ keçirilməsində "ərazi və şəraiti bilən, düşməni türk tərəfin əsgəri birliklərinin hərəkəti və vəziyyəti haqqında məlumatlarla təmin edən bölgənin xristian əhalisinin-ermənilərin köməyinin də rolu böyük olmuşdur" [5, s. 383]. Rusların ermənilərlə işbirliyi Ərzurumun alınmasında [23, s. 327] da təkrarlanmışdı. Ermənilər türk ordularının bir daha Ərzuruma qayıtmayacağını zənn edərək buradakı türklərə qarşı vəhşiliklər törədirdilər. Rusların Ədirnəyə qədər gələrək, İstanbulun da varlığını təhlükə altına alması Osmanlı dövlətini Ruslarla danışıqlara vadar etdi. Nəhayət "hər iki tərəfin də barış istəməsi üzərinə yapılan görüşmələrdən sonra 14 eylül (14 sentyabr) 1829-cu ildə Ədirnə andlaşması imzalandı [9, s. 701]. Ədirnə müqaviləsinin 13-cü maddəsi ilə Anadoludan Ermənilərin Rusiyaya köçürülməsi məsələsi müəyyən edilirdi. Hadisələrin sonrakı gedişi göstərdi ki, Anadoludan da ermənilərin Rusiyaya köçürülmələri planı əvvəlcədən hazır imiş, hətta rəsmi rus mənbələri də ermənilərin İrandan və Osmanlı dövləti ərazilərindən Qafqaza köçürülmələrinin bir planla bağlı olduğunu etiraf etməkdən çəkinmirdilər. Rusiya Qacar səltənətində olduğu kimi Osmanlı dövlətindən də ermənilərin köçürülməsində müxtəlif üsullara əl atırdı. Trabzon valisi Osman paşanın 14 avqust 1829-cu il tarixində İstanbula göndərdiyi məlumatda yazırdı: "Ərzurumda olan general Pankratyev qəza və nahiyələrdə olan əhalinin əkib-biçmələrinin qarşısını alaraq onları köçə zorlayır. Ərzurumda olan erməni rəhbərləri Rusiyaya yaxınlıq etdiyindən ermənilərin o tərəfə meyl etmələri açıq surətdə görünür" [5, s. 388]. Rus

səlahiyyətliləri ermənilərin köçürülməsində erməni keşişlərindən də faydalanırdılar. Keşişlər Osmanlı qəzalarına göndərilərək erməniləri köçə sövq etməyə çalışırdılar. Həmçinin erməni keşişləri buralardan ilk köçənlərdən olub, kilsəylə bağlı erməni xalqını da ardınca aparmağı bacarırdı. Digər zorakı tədbir isə köçməyə razı olanların "dəftərə" alınmağa başlanması idi ki, bu hal ermənilər içərisində narahatlığa səbəb olmuşdu. Çünki "dəftərə" adı düşməyənlər ruslar tərəfindən hədələnmişdilər. 1826-1828-ci illərdə Rusiya-Qacar və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələrinin spesifik nəticələri ondan ibarət olmuşdur ki, sonda müharibənin getdiyi yerlər ciddi etnik dəyişmələrə-xüsusən də müsəlmanların sayının azalmasına səbəb olmuşdur. Rusiya bu müharibələrdə qalib gəlməklə kifayətlənməmiş, müharibənin sonunda o coğrafiyada yaşayan hər iki dövlətin xristian təbəələrini də hiss ediləcək dərəcədə "sürüb götürmüş", başqa bir ərazidə yeni bir etnik xristian coğrafiyası meydana gətirməyə başlamışdı. Beləliklə, "Türkmənçay və Ədirnə müqavilələrindən sonra ermənilərin Türkiyədən və İrandan Qafqaza, məhz Qarabağın dağlıq hissəsinə, İrəvana, Naxçıvana kütləvi surətdə köçürülməsi başladı" [20, s. 5]. Şopen erməni vilayətinə köçürülən erməniləri iki hissəyə – Türkiyə və İrandan köçürülənlərə ayırır və qeyd edir ki, İranın Azərbaycan əyalətindən 1828-ci il və 1829-cu illərdə buraya 6, 946 ailə (35,560 nəfər), 1830-cu ildə isə Türkiyədən 3,682 ailə (21,666 nəfər) köçürülmüşdür. Nəticədə son 3 ildə vilayətin erməni əhalisi 10,628 ailə (57,226 nəfər) çoxalır. Bu tədbirlərdən sonra "Erməni vilayəti"ndə erməni ailələrin sayı 15,059 ailəyə (82,377 nəfər) çatmışdı [12, s. 112; 22, s. 40]. Bu dövrdə vilayətdə Azərbaycan türkləri 16,078 ailə (81,749 nəfər) hesablanmışdı [17, s. 11; 34, s. 525]. Türkiyədən köçürülən ermənilər əsasən Ahısqa, Pəmbək-Şörəyel və "Erməni vilayəti"ndə yerləşdirildi. Türkiyə paşalıqlarından Rusiya hüdudlarına (yəni Ahıska paşalığı, Borçalı distansiyası, Pəmbək və Şörəyelə, Talın mahalı, Göyçə gölü ətrafı və Baş Abarana) 14044 erməni ailəsi köçürülmüşdür [16, s. 53]. N.Şavrov qeyd edir ki, "1826-1828-ci illərdə iki il davam etmiş müharibə qurtardıqdan sonra 1828-ci ildən 1830-cu ilə kimi Zaqafqaziyaya İrandan 40 mindən yuxarı, Türkiyədən isə 84,600 nəfər köçürdük və onları Yelizavetpol və İrəvan quberniyalarının erməni əhalisinin çox cüzi olduğu ən yaxşı dövlət torpaqlarında yerləşdirdik" [22, s. 42; 33, s. 59-61]. Beləliklə, köçürülmüş 124 min erməni əhalisi Yelizavetpol və İrəvan Quberniyalarında yerləşdirilmişdir. Q.Lazarevin İ.Paskeviçə 24 dekabr 1829-cu il hesabatında göstərilir ki, o, öz fəaliyyətinə 26 fevral 1828-ci ildə başlamış və iyun ayının 11-də fəaliyyətini başa vurmuşdur, bu müddətdə o, "bütün maneələrə baxmayaraq, 8 mindən çox (8249) erməni ailəsini rus torpağına, yeni əldə olunmuş "Erməni vilayəti"nə köçürmüşdür" [15, s. 48-58; 22, s. 38 ]. Qaloyan yazır ki, 1831-ci ilin aprelində Türkiyədən Rusiyaya (Cənubi Qafqaza-R.Q.) 14.044 xristian ailəsi yaxud 84 min adam köçürülmüşdür. 7298 ailə Ərzurumdan, 2464 ailə Qarsdan, 4215 ailə isə Bəyaziddən Qafqaz ərazilərinə köçürülərək yerləşdirilmişdir [28, s. 177].

Köçürmə siyasətinin Rusiya üçün mühüm əhəmiyyət kəsb edən ikinci tərəfi də Qafqazdan müsəlmanların başqa regionlara köçürülməsi idi. Qafqazdan azərbaycanlılar sıxışdırıldıqda köç etdikləri yerlər Osmanlı imperatorluğuna bağlı torpaqlar idi. Qafqazda əhali sayını ermənilərin xeyrinə dəyişməsinə əhəmiyyət verən Rusiya ermənilər gəldikdə azərbaycanlıların köçməsinə şərait yaradırdılar. Qafqazda həyata keçirilən istilalarda, yerli xalqın zorla yerlərindən sürgün edilməsi, rus siyasətinin çox təsirli bir vasitəsi oldu [23, s. 342-343]. Dövlət səviyyəsində ardıcıl olaraq həyata keçirilən bu siyasət nəticəsində bölgədə demoqrafik tarazlıq pozulmuş, Rusiyanın əli və gücü çatan yerlərdə vəziyyətin erməni əhalisinin xeyrinə dəyişdirilməsinə cəhd göstərilmişdir. Beləliklə, işğaldan qabaq İrəvan xanlığının əhalisinin 3/4-ü təşkil edən azərbaycanlıların xüsusi çəkisi artıq 1834-1835-ci illərdə 46 faizə enmişdi [1, s. 211].

Erməni müəllifləri özləri də Rus–İran və Rus–Türk müharibəsi zamanı İrəvan və Naxçıvanda müsəlmanların çoxluq təşkil etdiklərini yazırlar. Amma ermənilərin ən çox

sübutuna cəhd göstərdikləri bu ərazilərin ən qədim əhalisi olmaları haqqındakı iddialarıdır. Parsamyan yazır ki, hətta böyük erməni mərkəzlərində (İrəvan, Naxçıvan və s. yerlərdə) müsəlmanlar çoxluq təşkil edirdi [32, s. 46]. Mənbələrdən aydın görünür ki, ermənilərin o bölgəyə yerləşməsinə qədər və onlar yerləşdikdən uzun illər sonra belə bölgənin əsas əhalisi Azərbaycan türkləri olmuşdur. 1655-ci ildə İrəvana gəlmiş Jan Babtist Taverniye əsərlərində qeyd edilir ki, şəhər qalasında yalnız müsəlmanlar yaşayır. On səkkiz il sonra burda olmuş başqa bir fransız səyyahı Jan Şarden yazır ki, İrəvan qalasının özlüyündə kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada yaşayanlar yalnız farslardır. Elə həmin Şardenin eyni vaxtda, eyni yol qeydlərində qələmə aldığı toponimlər isə (keçi qayası, Qırxbulaq və s) isə başqa bir gerçəyin sübutudur [17, s. 7]. Göründüyü kimi bu səyyahlar buranın yerli əhalisinin ermənilər deyil yalnız müsəlmanlar və farslar (XVII–XVIII əsrlərdə Osmanlı hökumətinə Osmanlı adı ilə yanaşı Avropa saraylarında Subline Porte və ya sadəcə "Porta" deyildiyi kimi Səfəvi dövlətinə də Persiya deyilirdi) olunduğunu qeyd ediblər. Erməni tarixçisi Zaven Karkodyanın 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanın əhalisi 1831-1931-ci illər statistik məlumat kitabı"nda gətirilən faktlar da bu baxımdan diqqətə layiqdir. Burada adları çəkilən 2310 kənddən az qala iki minində əvvəllər azərbaycanlılar yaşamışlar [17, s. 3]. İrəvan xanlığını Azərbaycan türklərinin tarixi torpaqları olmasının təsdiq edilməsində başqa bir erməni tarixçisinin verdiyi faktlar da çox mühümdür. Ermənilərin İrəvan quberniyasına köçürülməsi XIX əsr ərzində imkan düşdükdə davam etdirilmişdir. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı Türkiyədən 35000 araba erməni ailəsi Sürməli qəzasına, 1893-1894-cü illərdə Türkiyənin şərqində baş vermiş hadisələrlə əlaqədar olaraq əvvəl 10000, 1897-ci ildə isə 90000 nəfərə qədər erməni İrəvan quberniyası ərazisinə köçürülmüşdü. Bu köçürülən erməni əhalisi yalnız İrəvan quberniyasında deyil, Azərbaycanın digər quberniyalarında da yerləşdirilmişdi [14, s. 127]. Erməni alimi Zaven Korkodyan 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanın əhalisi 1831-1931" adlı statistik məlumat kitabında yazırdı: "1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1866-cı ildə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur" [11, s. 23]. Erməni akademiki B.S.Ovanesyan yazmışdır ki, XIX əsrin sonunda İrəvan şəhərində yaşayan əhalinin 75 faizi azərbaycanlılar, 25 faizi isə ermənilər olmuşlar. O zaman İrəvan şəhərində ermənilərin iki kilsəsi, azərbaycanlıların 16 məscidi olmuşdur. Daha sonra, Ermənistan KP-nin ikinci katibi işləmiş Hrand Martirosyanın yazdığına görə 1829-cu ildə Erməni vilayətinin şəhər və kəndlərində 95 faiz azərbaycanlı olduğu halda 1959-cu ildə 45 faizə enmişdir [7, s. 18 ].

## *Nəticə*

Ermənilərin Cənubi Qafqaza kütləvi şəkildə köçürülərək Qərbi Azərbaycan torpaqlarında yerləşdirilməsi uzunmüddətli, planlı düşünülmüş və mərhələlərlə keçirilmiş çoxməqsədli bir proses olmuş, müxtəlif imperiyaların və erməni etnosunun maraqlarına uyğun gəlmişdir. XVI əsrin ortalarından 1700-cü ilədək ermənilərin "Böyük Ermənistanı" bərpa etmək üçün Avropa dövlətlərinə müraciət etmələri və bu müraciətlərin nəticəsiz qalması tarixin sonrakı dövrlərində erməni ictimai xadimlərinin bu məsələ ilə əlaqədar Rusiya imperiyasının onlara kömək edəcəyinə ümidlərini yaratdı. Ermənilərin Cənubi Qafqaza köçürülməsi XVIII əsrin I rübündə Pyotrun icazəsi ilə başlamış, Rusiya tərəfindən XIX əsrin əvvəllərində Arazdan şimaldakı Azərbaycan torpaqlarının işğalının başlanması ilə ermənilərin Cənubi Qafqaza hərəkəti üçün əlverişli tarixi-siyasi şərait yaranmışdır. Rusiyanın Cənubi Qafqazı ələ keçirib İran və Osmanlı dövlətindən bu ərazilərə erməniləri köçürməsi nəticədə bölgənin etnik tərkibində dəyişiklik baş verdi, adı çəkilən dövlətlərlə sərhəddə Rusiya üçün əlverişli xristian dayağı yarandı. Türkmənçay müqaviləsi, xüsusilə müqavilənin XV maddəsinin həm erməni həm də Azərbaycan xalqı üçün prinsipial əhəmiyyəti oldu və

müqavilə bu xalqların taleyində mühüm tarixi rol oynadı. Əgər müqavilə Azərbaycanı və Azərbaycan xalqını iki hissəyə parçalayıb onu İran və Rusiyanın əsarəti altına salırdısa, əksinə erməni xalqının konsildasiyasında əhəmiyyətli dərəcədə rol oynadı, ermənilərin daha sıx birləşməsinə və onların mədəni və siyasi həyatının yeni və müəyyən ərazi çərçivəsi olan ocağının yaranmasına gətirib çıxardı. Qərbi Azərbaycan torpaqlarında 1828-ci ildə "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycan ərazilərində gələcək erməni dövlətinin əsası qoyuldu.

ƏDƏBİYYAT

1. Abdullayev M. Xanlıqlar və Rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). B., 2005, 232 s.
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi (Azərb. MDTA). Fond 202. Siy. 1. sax. Vah. 7. vər. 317-321
3. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər), red. S. Əlyarlı, B. 1996, 868 s.
4. Bayramov İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2011, 288səh.
5. Beydilli K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadoludan Rusyaya göçürülen ermeniler. Ankara : Türk Tarih Kurumu, 1988. Belgeler: Türk tarih belgeleri dergisi, cilt: XIII, sayı 17, 365-434 ss. : 17 belge, 1 gravür.
6. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə Bakı, "Şərq-Qərb", 2007, 424 səh.
7. Cəlilova Z.N. İrəvan quberniyasının etnik durumu (XIX-XX əsrin əvvəllərində) Vətən tarixi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. 24 s.
8. Əsədov N.C. Rusiya İmperiyasının Cənubi Qafqaz siyasətində rus-erməni əlaqələrinin rolu // Beynəlxalq Münasibətlərin Aktual Problemləri, B., 2009, № 1, s. 106-118.
9. Halaçoğlu Y. "Türkler", XII cilt, Yeni Türkiye Yayınları, Ankara. 2002, 950 s.
10. XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. H.Həsənovun ümumi redaktorluğu ilə. "Elmi informasiya və nəşriyyat işləri" şöbəsi, Bakı: 2023. -306s.
11. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi redaktor Mahmudov. Y. Bakı, 2010. 614 s.
12. Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri). Bakı: "Turxan" NPB, 2017, 400 s.
13. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən. (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016. 544 səh.
14. Qarayev E. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında), Bakı, "Füyuzat", 2024, 564 s.
15. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiyaya köçürülməsinin təsviri. M., 1831 (rusca 142 s.); Bakı, Azərbaycan nəşriyyatı. 1995, 128 s.
16. Mahmudov Y., Nəcəfli G. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin regional təhlükəsizlik üçün nəticələri. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2020, 100 s.
17. Məmmədov İ., Əsədov S. "Ermənistan Azərbaycanlıları və onların acı taleyi". Bakı: Azərbaycan nəşriyyatı, 1992. 72 s.
18. Mustafa N. İrəvan şəhəri. Baki – "Red N Line" MMC - 2020, 292 səh.
19. Mustafa N. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar. "Orxan" NPM, Bakı-2025, 108 səh.
20. Neymətova M. "Ermənilərin Azərbaycana torpaq iddiaları, maddi - mədəniyyət abidələrinin dağıdılması və ya erməniləşdirilməsi." Azərbaycan tarixi və mədəni irs problemləri elmi praktik konfransın materialları. Bakı. 20 may 2003.

21. Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s.31.
22. Paşayev A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011. 328 s.
23. Sadıqov H. "Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında (1747-1829)". Bakı: "Təfəkkür" NPM, 2004. 376 s.
24. Şahmuradov A.Ş. Ermənilər Cənubi Qafqazda (məskunlaşma tarixindən). Bakı, CBS polygraphic production, 2015, 136 s.
25. Verdiyeva H.Y., Əlizadə C. Ş. İrəvan məkanında azərbaycanlılara qarşı etnik təmizləmə: tarixi və hüquqi aspektdə. Bakı, 2020, 218 s.
26. Акты, собранные Кавказской Археографической комиссией. под. ред. А.Берже. т.7,Тифлис, 1878. 994 с.
27. Вердиева Х. Ю. "Переселенческая политика Российской Империи в Северном Азербайджане (XIX - начале XX вв.)". Б.1999, 298 с.
28. Галоян Г. "Россия и народы Закавказья". М. Мысль, 1976. 455 с.
29. Ереванци С. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестных моностырей. М.: Изд.-во вост.литер. 1958, 400 стр.
30. Исмаилзаде Д.И. "Русское крестьянство в Закавказье (30-е годы XIX начало XX веков)". М. 1982, 311 стр
31. Кавказский календар на 1853 год. Тифлис 1852.
32. Парсамян В.А. "История армянского народа 1801-1900 гг. Книга первая". Е. 1972. 398 стр.
33. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, СПб, 1911, 156 стр.
34. Шопен И. "Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи". СПб: Типография Императорской Академии Наук, 1852, 1231 стр.

УДК 94(479.24)

*Рамин Халил оглы Гулиев*
*Азербайджанский Университет Языков*

## ПЕРЕСЕЛЕНИЕ АРМЯН НА ЮЖНЫЙ КАВКАЗ: ИСТОРИКО-ПОЛИТИЧЕСКИЕ УСЛОВИЯ И ДЕМОГРАФИЧЕСКИЕ РЕЗУЛЬТАТЫ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Россия, переселение, население, историко-политические условия, поселение, Армянская церковь, Южный Кавказ

В статье подробно изучается формирование первых армянских поселений на территории Азербайджана, историко-политические условия переселения армян на Южный Кавказ и демографические результаты данного процесса. В 1441 году, с переносом центра Армянского Католикосата из Киликии в Учкильса-Учмуэдзин под Ереваном, начался процесс расселения армян на азербайджанских землях, включая Иреванскую область. Земли, захваченные Армянской церковью вокруг Иревана различными способами, сыграли важную роль в их переселении на окраины Иревана. Продолжительные войны Азербайджана с Тимуридами, Шейбанидами, Османской

империей, грузинскими царями и Россией в XV–XVIII веках ослабили государство экономически и политически и привлекли внимание Армянской церкви. Армяне планировали восстановить утраченную государственность на территории, граничащей с географическим положением сильного христианского государства. В то время ближайшим христианским государством к территориям современной Сирии, Турции и Ирана, где армяне были относительно широко распространены, была Россия, имевшая интересы на Кавказе. Если бы армянское государство было создано за пределами Кавказа, то оно было бы окружено только мусульманскими государствами. Именно по этим причинам переселение армян на Южный Кавказ, особенно в окрестности Иревана, рассматривалось как необходимое. Проведенные исследования показывают, что после присоединения Россией территорий Северного Азербайджана переселение армян в Кавказский регион - в Иреванское, Карабахское и Нахчыванское ханства, Ахалцихские и Ахалкалакские территории - привело к серьёзным этническим изменениям, особенно к сокращению числа мусульман.

UDC 94(479.24)

*Ramin Khalil Guliyev*
*Azerbaijan University of Languages*

## THE RESETTLEMENT OF ARMENIANS TO THE SOUTH CAUCASUS: HISTORICAL AND POLITICAL CONDITIONS AND DEMOGRAPHIC RESULTS

*SUMMARY*

*Keywords:* Russia, resettlement, population, historical and political conditions, settlement, Armenian Church, South Caucasus

The article provides a comprehensive analysis of the establishment of the first Armenian settlements in Azerbaijani territories, the historical and political conditions of Armenian resettlement to the South Caucasus, and the demographic consequences of this process. In 1441, with the transfer of the center of the Armenian Catholicosate from Cilicia to Uchkilsa-Uchmuedzin near Irevan, the process of Armenian settlement began in Azerbaijani lands, including the Irevan region. The lands seized by the Armenian Church around Irevan through various means played an important role in the resettlement of Armenians to the outskirts of Irevan.The prolonged wars of Azerbaijan with the Timurids, Sheybanids, the Ottoman Empire, Georgian kings, and Russia during the 15th–18th centuries weakened the state economically and politically and drew the attention of the Armenian Church. The Armenians sought to restore their lost statehood in a territory adjacent to a powerful Christian state. At that time, Russia, which had interests in the Caucasus, was the closest Christian state to the territories of present-day Syria, Turkey, and Iran, where Armenians were relatively widespread. Had an Armenian state been established outside the Caucasus, it would have been surrounded solely by Muslim states.For these reasons, the resettlement of Armenians to the South Caucasus, especially in the vicinity of Irevan, was considered necessary. The research demonstrates that after Russia occupied Northern Azerbaijan, the resettlement of Armenians to the Caucasus region - including the Irevan, Karabakh, and Nakhchivan khanates, as well as the Akhaltsikhe and Akhalkalaki territories - led to significant ethnic changes, particularly a decrease in the number of Muslims.

**Daxil oldu: 20.06.2026-cı il**